# İNSAN AĞRISININ YAZ GÜLLƏRİ

Təbiət etibarı ilə insanın özü hissləri, duyğularını mühitdən alır; nə qədər cəmiyyətə bağlıdırsa, bir o qədər də elə təbiətin özünə bağlıdır. Təbiətdə baş verən dəyişikliklər, fəsillərin yer dəyişməsi insanın varlığında əks-səda verir. Qış havasının təsiri ilə insan ruhunda oyanan hissləri, duyğuları yazda davam etdirmir. Yaz özü ilə insanın ruhuna yeni nəfəs gətirir.

Yazıçı, publisist Şəfəq Nasir də bu ümumi insan axınından kənarda deyil. Ancaq bir yazıçı kimi onun müşahidə imkanları daha genişdir. Və təbiətin dəyişməsi fonunda bu müşahidələr onun varlığında hisslər, duyğular kimi əks-səda verir. Və yazıçı təbiətlə həmahəng yaranmış hisslərini, duyğularını sözə çevirir. Biz bu sözü müxtəlif janrların tələbinə uyğun dəyişən formada görürük. Müəllifin müxtəlif janrlarda - publisistika, esse və nəsir yaradıcılığında özünü ifadə imkanlarının ustalıqla təzahürü göstərir ki, istedadlı yazıçı üçün forma şərtidir. Sənətkar insan hisslərinə, duyğularına təsir edən əsərlərini yaradırsa, demək o, ömrünün, həyatının mənalı çağlarını yaşayır.

Şəfəq Nasirin "Yaz düşüncələri" ümumi adı altında iki essesi var. Bu esselərdə müəllifin yaz fəslində yaşadığı mühitə münasibəti onun yaradıcılığında əsas əhəmiyyət kəsb edən yaddaş məxəsi əsasında qələmə alınıb. "Təbiətin nazlı qızı" adlanan birinci essedə yazıçının mətnin özündən anlaşıldığı kimi doğulub böyüdüyü mühitə sanki poetik münasibəti tərənnüm şəklində üzə çıxır. O, yazın gəlişini xoş xəbər kimi çatdırır: "Bu səhərin könül açan Nəsimini, göz oxşayan rahatlığını hiss edirsinizmi? Üz-üzə, göz-gözə gəldiyiniz adamların çöhrəsindən axıb-tökülən fərəhi, xoş ovqatı duyursuzmu?" Bu ritorik sualların əsas mətni təbiətlə bağlıdır. Təbiətin gözəlliyini duymaq, onun gətirdiyi fərəhdən qanadlanmaq üçün gərək özünü təbiətin özüylə doğma biləsən. Bütün bunlar müəllifin insanlara aşılamq istədiyi əsas duyğunun, yəni həyat eşqinin, yaşamaq həvəsinin əvəzsizliyini, böyük dəyərini diqqətə çatdırmaqdır. Demək, yazıçı üçün insanı qorumaq, onun həyat eşqini alovlandırmaq, insanı yaşamağa həvəsləndirmək əsas missiyadır. Sənətkar isə öz missiyasını yerinə yetirmək üçün hər hansı bir dəyişiklikdən istifadə edə bilər. Ən kiçik təbiət elementi cəmiyyətdə baş verən hər hansı bir hadisə, hətta ən faciəli dövrdə belə təzahür etməsindən asılı olmayaraq yazıçıya imkan verir ki, o insana həyatın gözəlliyi haqqında öz nəğmələrini oxusun: "Qış yuxusundan silkinib oyanmış ağacların düymə tutan qol-budağını, dirçələn torpaqdan boy göstərən xırdaca cücərtiləri, puçur tökən ləçəkləri görürsüzmü...". Bir çiçəyin ləçəyi də, xırdaca bir cücərti də imkan verir ki, yazıçı insan düşüncəsini daha alt laylarına enə bilsin.

Söz budur ki, bütün hallarda insanın-insana bir dəfə verilən həyatın dəyərini, gözəlliyini təlqin edə biləsən. Həyatın gətirdiyi hər hansı bir ağrı-acı onu həyatdan bezdirə bilməməlidir. Yəni, yaşamaq bütün hallarda daha üstündür. Çünki, insan evi olan dünyanı yalnız yaşamaqla qorumaq olar.

Bu ilki yaz dünya üçün təlaş və vahiməylə gəldi. Qorxulu ölüm mələyi dünyanın başı üstündə qanad çalmaqda idi. Ancaq, bütün bunlara baxmayaraq bu qorxu və vahimə insanın həyat eşqini söndürə, onun yaşamaq duyğusunu əlindən ala bilmədi. Onsuz da Azərbaycan xalqının sonuncu qərinəni əhatə edən zamanı çox böyük faciələrlə müşayət olunub. Əslində Şəfəq Nasir həyatın hələ də dumanlar içində olduğu 25-il bundan əvvəlki zamanın əhvalını elə öz zamanında yazıb. Dövlət çevrilişlərinə cəhd, bir milyona yaxın insanın yurdsuzluq, evsizlik əzabları, kasıbçılığın son həddi... Bütün bunlar çox ağır bir həyatın görünən tərəfləri idi. Yazıçı bütün bunları görürdü. Və öz həyatında bu və ya digər dərəcədə ağrı-acıların daşıyıcısı idi. Ona görə də istər-istəməz yazın gətirdiyi xoş ovqat altında bu ağrı-acıları yada salmalı idi: "Dərdimiz başımızdan aşsa da, ürəyimiz sıxıntı çəksə də, yenə yaz gələndə gözümüz-könlümüz təzələnir. Sanki hər yazın gəlişi özüylə nəsə qəribə, xoş bir müjdə gətirəcək. Bu da həməncə fəsillə birgə insan ümüdlərinin də göyərməsi, pöhrə tutmasıdır". Necə ustalıqla dərddən, ağrı-acıdan, qəmdən-kədərdən yaşamaq çağrışına keçir. Nikbin notlarla sözlərin musiqisini yaradır. Bununla da insanı qapıla biləcəyi ümidsizlik aləmindən qoruyur. Sözlər elə şirin duyğularla əvəzlənir ki, insan nə qədər ağrı-acılı olsa da, dünyanın varlığına sevinir. Yaşamağın gözəlliyinə aludə olur, həyatda olmağından fərəf duyur. Bəli, müəllifin dediyi kimi, "bundan şirin, bundan ləziz nə var ki, bu dünyada..." Yazıçı həyat uğrunda mübarizədə insanın mənəvi yardımçısıdır, dayağıdır. Onu müxtəlif məqamlarda görür, duyur, qarşılaşa biləcəyi problemlərdə çarəsiz olmamaq üçün ona mənəvi güc ötürür.

Şəfəq Nasir yaradıcılığına xas olan əsas amildən burada da istifadə edir. Yəni özünün fikir və düşüncələrini yaddaşa güvənclə insanlara çatdırmaq yolu tutur. Yaddaşından ona dikdə olunan hadisəni, əhvalatı, tarixi keçmişi təəssürat kimi sözə gətirir.

Bu essedə - "Təbiətin nazlı qızı" essesində müəllif köç obrazına xüsusi önəm verir. Köç insanın həyatını dəyişdirir. İnsanı yeni mühitə aparır. Durğunluqdan çıxarır, onun ruhunun ənginliyi üçün yeni üfüqlər göstərir. Müəllifin ümumi həyat yoluna nəzərən belə qənaətə gəlmək olur ki, onun təsvir elədiyi ərazi, bir parça Vətən torpağı Mil düzüdür. Tarixən insanlar heyvandarlıqla məşğul olduqları üçün fəslə uyğun olaraq yerlərini dəyişirdilər. Onlar yuxarı dağlıq ərazilərə bir zaman Azərbaycanın qərb hissəsi olan Dərələyəzə, Zəngəzur yaylaqlarına, bəzən də Yuxarı Qarabağın səfalı yerlərinə yerdəyişmə edirdilər. Şəfəq Nasir bu köç təəssuratı ilə insanların mənəvi mühitinin dəyişmələrini şairanə bir əhvalla, insanı duyğulandıran bir ovqatla yazya gətirir. Köç yazıdan keçir. Günlük məsafələr qət olunduqca fasilələr, dincəlmələr və bu zaman insanların ünsiyyəti yolüstü yaşam tərzi bu təsvirlərdə diqqəti çəkir: "Obaşdan köç yenə yola düşərdi. Otluqlar, çəmənliklər başlananda qızlar atlardan töküləşüb şehə bata-bata tər bənövşələrdən dəstə bağlayardılar. Sonra həvəslə qoxulayar, püstə dodaqlarına, al yanaqlarına toxundurardılar. Çoxdan adam səsinə qəribsəmiş yal-yamaclar qızların cingiltili gülüşlərindən cana gələrdi. Köç əhli bir də baxıb görərdi ki, mənzil başına çatıb. Hərə öz yurd yerini sahmanlamağa başlayardı. Kimsəsiz qalmış yaylağı oğul-uşağın səsi başına alardı. Dəyələr qurular, ocaq yerlərindən alov, tüstü burumları qalxardı. Obada yaylaq həyatı başlayardı". Yaylağa çatmaqla sahibsiz dağlara, bir neçə ay kimsəsiz qalmış yurd yerlərinə səs-səda düşür. İnsanın gətirdiyi nəfəslə, yurddakı ölü sükut qeybə çəkilir. Bir sözlə, yer-yurd cana gəlir. Hərdən düşünürsən ki, bu nostalji hisslərin, duyğuların yazıya gətirilməsi nə dərəcədə əhəmiyyətlidir? Bir anlığa düşünək ki, keçmişimizi tamam unutmuşuq. Hardan gəlib, haraya getdiyimizi tamam yaddan çıxarmışıq, onda yağı düşmən kökə bağlı olmadığımız üçün yaddaşsızlıq ağrısı çəkməyimizdən istifadə edərək əlimizdə olanlara da sahiblik etmək istəməzmi?!. Bəli, belə yazıların dəyəri bizi yaddaşa bağlamağındadır. Həyatımızın mənası isə yaddaşdan qopmamaqdadır. Bu mənada yəni bizi yaddaşa bağlamaqda yazıçı sözünün dəyəri əvəzsizdir. Şəfəq Nasirin öz yazısında tapındığı tarixi fakt, yer-yurd adları, bir sözlə, keçmişə münasibət bir növ əqidəli yanaşma ilə bağlıdır. Onun üçün tarixi yerlər istinadır. Elə bu səbəbdən də o yenə də öz oxucusunun yaddaşına yer-yurd adlarını dikdə edir. Öz oxucusunu məhz bu yaddaş elementləri ilə silahlandırır. Şübhəsiz, anasının dilindən eşitdiyi uşaqlıq nağılları onun yaz düşüncələrinin əsas özəyini təşkil edir: "Anamın yaylaq həyatından yaddaşıma köçmüş bu olanları mən də nə vaxtsa bir dəfə yaşamışam. Və o bircə dəfədə daddığım xoş anların, rəngarəng gözəllikləri, səhri günü bu günəcən məni tərk etməyib. Bu sətirləri qələmə alanda hələ ki, düşmənə qalmış "Lələr"i "Sarı yer"i, "Dəli dağ"ı, "Mıxtökən"i, "Meydan"ı, "Qırxqız"ı, "Sarı baba"nı, "Şuşa"nı yada salıram. Bilirəm ki, o yerlərin yal-yamacı, dağı-daşı da doğma hənirdən, mərhəm nəfəsdən ötrü qəribsəyib. O yerlərin indilərdə göyərmiş torpağı da, tumurcuq bağlayan ağacları da yan-yörəyə boylana-boylana qalıb. Xırdaca pöhrələri, yanağı çatlayan ləçəkləri qayğıkeş, mehriban əllərə həsrət qalıb. Amma hər gələn yaz özüylə nəsə qəribə, xoş müjdə gətirmirmi? Bu da yazla birgə insan ümidlərinin göyərməsi kök atması deyilmi? Bundan şirin, bundan ləziz nemət varmı görən?" Doğrudan-doğruya çəkilən yer-yurd adları bir oxucu kimi, həm də həmin həyatı yaşamış Qarabağlı kimi mənim də sinəmi göynətdi. "Qısır yaylağı" nın zirvəsindən üzü "Bazar çay" şimala tərəfə baxanda Pəri çınqılın ağ donlu mələk simasını gördüyüm günlər yaddaşımda canlandı. "Arxaşan", "Yolaşan", "Murad" təpəsi, "Qırxlar", "Sümüklü pir", "Qotur isti suyu" bir-bir yaddaşımda çözələndi. Bayaq dediyimiz sualın cavabına indi asanlıqla gələ bilirik. Oxucunu yaddaşa qaytarmaq budur. Onun ata-babasının sahibi olduğu ulu keçmiş itirilmiş olsa belə, əvəzsiz nemət kimi ruhumuzu qidalandırır və bizi yeni zamana, yeni mübarizə dünyasına səsləyir. Şəfəq Nasir "Marifçi" qəzetində dərc etdiyi (28 mart 1995-ci il) "Təbiətin nazlı qızı" essesi ilə qarşısına qoyduğu məqsədə nail olduğunu düşünürəm.

"Vətən, Ana, bir də Yaz sevgisi" essesində də müəllif sanki yazla bağlı duyğularını davam etdirir. Bu essedə də biz Vətəni, Torpağı, Ananı bir yerdə görürük: "Vətən, Torpaq, Ana kəlmələrinin istisinə, işığına bələndiyim bu anlarda təbiətin nazlı qızı, Yaz könlümə bir rahatlıq, sərinlik gətirdi. Həmişə də belə olur. Elə ki, yaz gəlir, torpaqda otlar göyərir, ağacların yaşıl tumurcuqları açılır, yaz güllərinin yanağı çatlayır, ürəyim bu gözəllikdən atlanır. Nə qədər dərdimiz olsa da, ürəyimiz sıxıntı çəksə də, yaralarımız qövr eləsə də, yenə gözümüz, könlümüz təzələnir. Bir də ki, günəşli yaz səhərini könül açan nəsimi, göz oxşayan rahatlığı hansı qəlbi alıb aparmır ki. İnana bilmirəm ki, yazın ılıq nəfəsi, vəsvəgəlməz gözəlliyi, torpağının təzə-tər qoxusu ürəkləri təzələməmiş olsun. İnsan ümidləri, inamları da belə təzəlikdə göyərir". Müəllif üçün çətindir, ağrılıdır. Çünki torpağın bir tərəfi yadların tapdağı altındadır. İtirilən, başqa dövlətlərin caynağına keçmiş ərazilər bir yana, indi Qarabağ dərdi də XX əsrin sonunda böyük faciənin miqyassızlığı kimi üzə çıxır. Müəllif yeni yaz ovqatı ilə dəyişən təbiəti insanın yaşadığı hisslərlə müqayisəyə çəkir. Bu müqayisələrin fonunda biz zamanın gərdişi ilə ağır-ağır nəfəs alan Azərbaycanı görürük. İstər-istəməz ağrı altında inildəsək də yazın gətidiyi fiziki gücə müəllif bir mənəvi təpər də əlavə edir. Biz özümüzü ruhən dirçəlmiş sanırıq. Bütün hallarda müəllifin istəyi ilə razılaşırıq. Yəni, hələ ki, dünyanın axırı deyil, hələ yeni sabahlar olacaq, yeni zamanlar gələcək. Bizi daha həlledici döyüşlər, mübarizələr gözləyir. Hətta uzaq gələcəyə də Şəfəq Nasirin "Yaz düşüncələri" içərisində "Qarabağa ekskurs etməsi" yeni nəsillərin diqqətini cəlb edəcək. Onlar bir vaxt bu günün insanının yaşadığı hisslərlə bahəm, bu hadisələrin şahidi olan yazıçının da kimliyini, onun Vətən, Torpaq, Ana uğrunda mübarizələrinin mahiyyətini anlamağa çalışacaqlar. Şəfəq Nasirin bu duyğularının necə ağrılı hisslərlə yazıldığını görməmək mümkünmü: "Qarabağın gözü, qədim, cənnət Şuşanın yamacında bir azdan açacaq Xarı bülbülün də neçə ildi gözü nəmlidi. O gül də doğma hənirdən, məhrəm nəfəsdən ötrü qəribsiyib. Düşünəndə ki, bir azdan torpağın bitirib yetirəcəyi həməncə gülün qəmli gözləri, zərif ləçəkləri yan-yörəsinə boylana-boylana qalacaq, könlümə, gözümə kədər çökür. Bir sızıltı, göynərti, varlığımı çulğayır. Şuşa yamacında nadir və gözəl Xarı bülbülün neçə bahardı düşmən tapdağı altında sozalıb itirdiyini bilincə necə kövrəlməyəsən? Şuşalıların bu yaz günlərində cənnət torpağından ötrü göyüm-göyüm göynəməsini necə duymayasan? Eləcə də Ağdamın, Laçının, Qubadlının, Kəlbəcərin, Cəbrayılın, Zəngilanın itkisindən ürəyinin təpəri əriyən soydaşlarımızın dərd-sərini necə özünkü bilməyəsən?" Müəllifin özünün ifadələrinə söykənsək, görərik ki, bu yazıda nikbin bir faciə məqamı da var. Bu məqam "insanın puçur tökən arzularını göyərtmirmi?" Burada "puçur" sözü mənim diqqətimi xüsusilə çəkdi. "Puçur" tumurcuq anlamı da verir. "Puçur" tər damlalarını yada salır. "Puçur-puçur tər tökmək" ifadəsi var. Burada Şəfəq Nasirin dildə işləklikdən qalmış sözləri cana gətirmək istəyini də görmək olar. Ümumiyyətlə, Şəfəq Nasir dilin güc laylarına kifayət qədər bələddir. Yazıçı nə qədər dil zənginliyinə malikdirsə, bir o qədər elə dilin özünə xidmət eləmiş olur. "Vətən, Ana, bir də Yaz sevgisi" essesi "Ədalət" qəzetindən işıqlığa çıxandan bəri (27 may 1998-ci il) həyatımızda çox hadisələr baş verib. Azərbaycan bir neçə ağır sınaqdan keçib. Azərbaycanı xaosa sürükləyənlərin qaragüruh siyasət dəllallarının istəkləri puça çıxarılıb. Azərbaycan ictimai-siyasi səbitlik yolunda öz mübarizələrini davam etdirməkdədir.

Yazıçı öz xalqının ruhuna, varlığına tapınırsa, onun yaradıcılıq imkanları tükənmir.

*02.06.2020*